**Astarada fəaliyyət göstərən kafedə aşkarlanan nöqsanlara dair məlumat**

**(18 avqust 2025-ci il)**

Astara şəhəri, Gənclər küçəsində fəaliyyət göstərən fiziki şəxs Mikayılova Aynur Adil qızına məxsus "Sahil" kafesində keçirilmiş planlı yoxlama zamanı qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların tələblərinin pozulduğu aşkar edilib.

Baxış zamanı müəssisənin sanitar-gigiyenik tələblərə cavab vermədən fəaliyyət göstərdiyi, dezinfeksiya işlərinin aparılmadığı, qida məhsulları ilə təmasda olan səthlərin hamar yuyulabilən, korroziyaya davamlı materiallarla üzlənmədiyi, izləmə sisteminin tətbiq edilmədiyi, işçilərin gigiyenik təlimə cəlb olunmadığı, temperatur rejimininə və mal qonşuluğu prinsipinə əməl edilmədiyi müəyyən olunub.

Faktla bağlı sahibkar barəsində inzibati protokol tərtib edilib, kafenin fəaliyyəti məhdudlaşdırılıb. Eyni zamanda nöqsanların aradan qaldırılması və müvafiq sağlamlaşdırma işlərinin həyata keçirilməsi üçün göstəriş verilib.